# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## S Ə R Ə N C A M

**“Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin sərəncamında olan və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin balansına verilməsi nəzərdə tutulan ləğv edilmiş Kəngərli və Sədərək rayon baytarlıq şöbələrinə məxsus əsas vəsaitlərin Siyahısı”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı”nı rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq:

1. “Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin sərəncamında olan və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin balansına verilməsi nəzərdə tutulan ləğv edilmiş Kəngərli və Sədərək rayon baytarlıq şöbələrinə məxsus əsas vəsaitlərin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “16” avqust 2024-cü il

№ 86s